

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 32 (22.943)

16 fevral 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Fevralın 15-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Tədbirdə, həmçinin Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç iştirak ediblər.

Dövlətimizin başçısı İlham Əliyev iclasda nitq söyləyib.

İclas işini plenar sessiyalarla və dəyirmi masa ilə davam etdirib.

* * *

Prezident İlham Əliyev fevralın 15-də Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak ilə görüşüb.

* * *

Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç ilə görüşüb.

* * *

Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili ilə görüşüb.

## Q.V.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qasım Vəli oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 15 fevral 2018-ci il*

## Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğdən 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 15 fevral 2018-ci il*

## Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin yığıncağı keçirilib



*Fevralın 15-də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin ötən ilin yekunları və 2018-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağı keçirilib.*

Yığıncağı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov açıb. O, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin əhəmiyyətindən, bu siyasətin Naxçıvanda da uğurla həyata keçirilməsindən danışıb.

Tədbirdə çıxış edən muxtar respublikanın gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov qeyd edib ki, partiya yarandığı gündən öz sıralarına layiqli üzvləri cəlb edir. Bugünkü statistik göstəricilərə əsasən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 53 min 823 üzvü var. Təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin sıralarında isə 21 min 855 gənc birləşib ki, onların da 11 min 391 nəfərini qadınlar təşkil edir. Partiyaya üzv olan gənclərin 5 min 85-i təhsil, 2 min 160-ı səhiyyə, 1542-si elm, mədəniyyət və incəsənət, 2 min 425-i idarəetmə, 5 min 313 nəfəri isə digər sahələrdə fəaliyyət göstərir.

"Ötən il ərzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən gənc nəslin Vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması, onların asudə vaxtlarının səmərəli təşkili və intellektual qabiliyyətlərinin artırılması istiqamətində gənclər birliklərinin iştirakı ilə 56 tədbir həyata keçirilib", – deyən nazir bu tədbirlərin 2018-ci ildə də davam etdiriləcəyini bildirib.

Azad Cabbarov vurğulayıb ki, bu gün Yeni Azərbaycan Partiyası tərəfindən hər bir partiya üzvünün qarşısına bir sıra mühüm vəzifələr qoyulub. Belə ki, 16 mart 2017-ci il tarixdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri tərəfindən bir sıra tapşırıqlar verilib. Bununla bağlı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin və şəhər (rayon) təşkilatlarının gənclər birliklərinin də üzərinə mühüm vəzifələr qoyulub.

Qeyd edilib ki, 2018-ci il Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə təsadüf edir. Bu məqsədlə muxtar respublika ərazisində ulu öndərin siyasi irsinin gənclərə öyrədilməsi baxımından keçirilən tədbirlərin sayı və keyfiyyəti artırılmalı, əhatə dairəsi genişləndirilməlidir. Həmçinin bu il İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilmiş Naxçıvan şəhərinin, ümumən muxtar respublikanın turizm potensialının təbliği diqqət mərkəzində saxlanılmalı, bu sahədə müvafiq dövlət qurumları ilə birgə fəaliyyət mübadiləsi həyata keçirilməli, bu məqsədlə müxtəlif tədbirlər hazırlanaraq icra olunmalıdır. Eyni zamanda bu il ölkəmizdə prezident seçkilərinin keçiriləcəyini nəzərə alaraq muxtar respublikada gənclər sahəsində dövlət siyasətini tənzimləyən müvafiq dövlət orqanı kimi Gənclər və İdman Nazirliyi ilə Yeni Azərbaycan Partiyası gənclər təşkilatlarının birgə fəaliyyəti daha geniş xarakter almalı və bu sahədə gənclərin fəallığı artırılmalıdır. Bu seçkilərdə ümummilli lider Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirən Naxçıvan gəncliyi, şübhəsiz, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi dəstəkləyəcəkdir.

Bildirilib ki, bütün bu tədbirlərin icrası ilə əlaqədar, hər birimiz partiyanın qarşımıza qoyduğu vəzifələri layiqincə yerinə yetirməli, müstəqil Azərbaycanın daha da inkişafı naminə var gücümüzlə çalışmalıyıq. Azad Cabbarov bu yolda partiya üzvlərinə uğurlar arzulayıb.

Sonra çıxışlar olub, diskussiya aparılıb.

**Tural AĞAYEV**

***Hər il quruculuq xəritəsi müxtəlif istiqamətlər üzrə genişləndirilən Ordubad rayonunda 2017-ci ildə də xeyli inşaat işi həyata keçirilib. Məlumat üçün bildirək ki, bəhs olunan dövrdə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 57616,3 min manat və ya 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan investisiyanın dəyəri 54661,4 min manat olub.***

## Ötən ili uğurla başa vuran Ordubad rayonunda quruculuq tədbirləri davam etdirilir

Həyata keçirilən quruculuq tədbirləri müxtəlif sahələri əhatə edib. Onlardan biri müasir tələblər səviyyəsində inşa edilmiş 340 şagird yerlik Üstüpü kənd tam orta məktəbinin binasıdır. Bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir.

Üstüpüdə kompleks quruculuq tədbirləri çərçivəsində inşa olunmuş kənd və xidmət mərkəzləri sakinlərə daha bir dövlət qayğısının ifadəsidir. Kənd mərkəzi üçmərtəbəlidir. Yaşayış məntəqəsində fəaliyyət göstərən dövlət qurumları üçün burada müasir iş şəraiti yaradılıb.

Rabitə evində 384 yerlik ATS quraşdırılıb. Müasirliyə qovuşmuş ucqar dağ kəndində telefon və internet istifadəçilərinin sayı getdikcə artır. Burada yeni poçt bölməsi də yaradılıb, dövri mətbuatın, internet və danışıq kartlarının satışı təşkil olunub, POS-terminal qoyulub, ödənişlərin qəbulu təmin edilib.

Quruculuq tədbirləri çərçivəsində Düylün-Çənnəb-Üstüpü-Məzrə kəndlərini birləşdirən 20 kilometr yol genişləndirilərək asfalt örtük salınıb. Yolun üzərində su keçidləri qoyulub, istinad divarları tikilib, 8 körpü əsaslı təmir edilib.

Kənddə abadlıq işləri də həyata keçirilib. Fiber-optik kabel, rabitə, elektrik və qaz xətləri çəkilib. Həmçinin kənddə əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədilə müxtəlif diametrli içməli su xətti də çəkilib.

Rayonun bütün kəndlərinin internetlə təmin edilməsi, məftilli telefon xətlərinin və sürətli internetin çəkilməsi diqqətdə saxlanılıb. Bu dövrdə POS-terminalların quraşdırılması davam etdirilib. Bu da əhalinin kommunal xərclərinin bankomat kartları vasitəsi ilə ödənilməsinə imkan yaradıb.

Quruculuq tədbirləri energetika sahəsini də əhatə edib. Belə ki, elektrik enerjisindən istifadə zamanı texniki itkinin normalara uyğun olaraq minimuma endirilməsi məqsədilə 2017-ci ildə müxtəlif transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılıb, yeni transformator yarımstansiyası quraşdırılıb.

Hazırda Ordubad şəhərində Rabitə evinin, Ordubad Dəmiryol Vağzalının yeni binasının və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad Yol Sahəsinin inzibati binasının, Ordubad şəhərində içməli su və kanalizasiya sisteminin, Ordubad Su Elektrik Stansiyasının tikintisi və Ordubad şəhərindəki 24 mənzilli yaşayış binasının əsaslı təmiri davam etdirilir.

Belə yeniləşmə tədbirləri bağlar diyarının sakinləri tərəfindən minnətdarlıqla qarşılanır, onların qurub-yaratmaq əzmini daha da gücləndirir, ordubadlıların 2018-ci ili də həyatın bütün sahələrində yeni nailiyyətlərlə başa vuracaqlarına əminlik yaradır.

**Muxtar MƏMMƏDOV**

# Daxili bazar yüksəkkeyfiyyətli quşçuluq məhsulları ilə təmin edilir

***Muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Ona görə də sahibkarlığın inkişafına geniş meydan verilməsi və bu sahəyə dövlət yardımının ilbəil artırılması böyük əhəmiyyətə malikdir.***

Son illərdə regionda aparılan meliorasiya və irriqasiya tədbirlərinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumlarının artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin fəaliyyətə başlaması sahibkarlığın da sürətli inkişafına əlverişli şərait yaradıb. Görülən işlər isə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.



Qeyd edək ki, bu gün muxtar respublikamızda onlarla sahibkarlıq obyekti fəaliyyət göstərir. Həmin obyektlərdən biri də Babək rayonundakı quşçuluq fabrikidir. Sahibkar Səyyad İmanquliyev deyir ki, bu təsərrüfatı 2009-cu ildə yaradıb. Sahibkarlığa Kömək Fondundan ilk olaraq 10 min manat vəsait alıb, kiçik bir sexlə bu işə başlayıb.

2012-ci ildə ailə təsərrüfatını genişləndirmək məqsədilə Sahibkarlığa Kömək Fonduna yenidən müraciət olunub. 120 min manat həcmində kredit hesabına 1 hektar ərazini 15 il müddətinə icarəyə götürüb. Orada quşçuluq fabriki üçün yeni bina inşa etdirib. Quşçuluq təsərrüfatında 4 sex qurulub. Fabrikə avadanlıqlar Almaniyadan gətirilib. İstehsal müəssisəsinin birgünlük cücəçıxarma gücü 10-15 min arasında dəyişir. Onu da qeyd edək ki, muxtar respublikada fəaliyyət göstərən quşçuluq təsərrüfatlarından fərqli olaraq burada bildirçin də bəslənilir. Quşlar müəyyən olunmuş temperaturda qapalı şəraitdə bəslənilir, onlara baytar həkim tərəfindən nəzarət olunur.

Fabrikdə sanitar-gigiyenik qaydalara və texnoloji proseslərə ciddi əməl edildiyini, quşların bəslənilməsindən tutmuş satışa çıxarılmasınadək bütün texniki normalara ciddi riayət olunduğunu gördük. Müəssisədə quşların kəsimi və paketlənməsi üçün də lazımi şərait yaradılıb. Kəsim prosesi tələb olunan qaydalara uyğun şəkildə həyata keçirilir. Buradan isə sifarişə uyğun olaraq ticarət obyektlərinə yola salınır.

Sahibkar bildirçin yumurtası ilə bağlı bilmədiklərimizə də aydınlıq gətirdi. Dedi ki, mətbəxlərdə toyuq yumurtası qədər istifadə olunmasa da, bildirçin yumurtasının böyük faydaları var. Həmin yumurtaların kiçik ölçüsünə baxmayaraq, digər yumurtalardan daha çox protein və amin turşularına malikdir. Xərçəngdən qripə qədər bir çox xəstəliklərin müalicəsində faydalı olan bildirçin yumurtası immunitet sistemini gücləndirir. Qida dəyəri çox yüksək olan bu yumurtanın 1 ədədi 4 toyuq yumurtasını əvəz edir. Məhz faydalı xüsusiyyətləri səbəbindən son illər bildirçin yumurtasına tələbat artıb. Quşçuluq fabrikinə baytarlıq nəzarəti məqsədilə gəlmiş Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq şöbəsinin müdiri Əyyub Abdullayev söhbətimizə müdaxilə edərək bildirdi ki, bildirçin yumurtasının bişirilmə qaydasını bilmək də çox vacibdir. Bəzi qadınlar onu uşaqlara ya çiy halda içirməyə çalışır, ya da südə qarışdıraraq daha çox faydalı olduğunu düşünürlər. Amma, əslində, bildirçin yumurtasını yarıbişmiş qəbul etmək lazımdır. Bunun üçün onu bir qazana qoyub üzərinə çıxanadək su ilə doldurmaq və 50-60 saniyə vam odun üstündə saxlamaq gərəkdir. Təbii şəraitdə bəslənən bildirçinin yumurtasının yalnız sarısını çiy halda ağ qəbul etmək doğrudur. Yumurtanın ağ hissəsi mütləq bişirilməlidir. Ümumiyyətlə, növündən asılı olmayaraq, yumurtanın çiy qəbul edilməsi salmonella virusuna, quş qripinə səbəb ola bilər. Böyrəklərində problem olan insanlar bu yumurta ilə qidalanmazdan öncə həkimlə məsləhətləşməlidirlər. Bəzən valideynlər bu yumurtanın kiçik olması baxımından daha az kalorili olduğunu düşünərək körpə uşaqlara bir gündə 3-4 bildirçin yumurtası yedirir. Bu, yolverilməzdir.

Əməliyyatdan sonra çox qan itirmiş, immuniteti zəifləmiş insanlara da bildirçin yumurtası əvəzsiz dərmandır. Zülal çatışmazlığı, özünü yorğun və enerjisiz hiss edənlərə ən yaxşı dərman olan bildirçin yumurtası idmançılar üçün də əla qidadır. Belə ki, kalorisi az, amma qida dəyəri yüksək olan bu yumurta idmanda enerjisini itirən insanlara gün boyunca yüksək əhval, bol enerji verir.

Son olaraq onu da deyək ki, quşçuluq fabrikinin fəaliyyətə başlaması daxili bazarda yüksəkkeyfiyyətli bildirçin ətinə, toyuq və bildirçin yumurtasına, cücəyə olan tələbatın ödənilməsinə töhfəsini verir, məşğulluğun təmin olunmasında da mühüm rol oynayır. Müəssisə yaxın vaxtlarda istehsal etdiyi məhsulun muxtar respublikadan kənarda satışını da planlaşdırır.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Qarğıdalı istehsalı ötən il torpaq mülkiyyətçilərinin ən çox maraq göstərdiyi sahə olub

***Vətəni Mərkəzi və Cənubi Amerika olan qarğıdalı taxıllar fəsiləsinə aid olan birillik dənli bitkidir. Meksika, Braziliya, Qvatemala, Salvador kimi ölkələrdə qədim zamanlardan becərilən bu bitki indi də kütləvi ərzaq rolunu oynayır. İspanların və portuqaliyalıların səyləri nəticəsində XV əsrdə Avropaya yayılan qarğıdalı daha sonra Çin, Şimali Afrika və Hindistana qədər gedib çıxmışdır. Rusiyaya XVII əsrdə gətirilmiş bu bitki oradan da Azərbaycana yayılmışdır.***





Qarğıdalının sürətlə yayılması onun hərtərəfli təsərrüfat əhəmiyyətli olması ilə bağlıdır. Onun dənələrindən şirə çəkir, şəkər, yağ, spirt və sair istehsal edirlər. Qarğıdalı həm də yeyinti sənayesində geniş tətbiq olunur: ondan un, yarma və nişasta hazırlayır, nişastadan qənnadı sənayesi üçün qlükoza, şəkər istehsal edilir. Bu qiymətli bitkinin tibbi əhəmiyyəti də çoxdur. XIX əsrin ikinci yarısında qarğıdalı saçaqlarının ödqovucu xüsusiyyətə malik olduğu qeydə alınıb. Hazırda isə ondan qaraciyər və öd kisəsinin iltihabında, habelə böyrəkdə daş olan hallarda istifadə edirlər. Xalq arasında qarğıdalını qovurub partladılmış şəklə salmaq qədimdən məlumdur.

Qeyd edək ki, qarğıdalı dünyada əkilən dənli bitkilər sırasında buğdadan sonra ikinci yeri tutur və dən üçün əkilən bu bitkinin ümumi becərildiyi ərazi 129 milyon hektardan çoxdur. Bu əkin sahələrinin 23 faizi Amerika Birləşmiş Ştatlarının payına düşür və ölkədə ümumi dən istehsalının 60 faizini təşkil edir. Bundan əlavə, Braziliyada 12,4 milyon, Hindistanda 6 milyona yaxın, Argentinada isə 3,2 milyon hektar sahədə qarğıdalı əkilir. Qarğıdalı əkininə dünyada bu qədər böyük yer verilməsinin səbəbi odur ki, bu bitki həm ərzaq məhsulu kimi, həm sənaye əhəmiyyətinə görə, həm də heyvandarlıqda faydalı yem istehsalı üçün böyük önəm daşıyır. Eyni zamanda qarğıdalının tropik iqlimə malik ölkələrdən tutmuş yağıntının miqdarı çox olan Şimal ölkələrinədək əkilə bilməsi bu qiymətli bitkinin daha geniş ərazilərdə yayılmasına imkan verir.

Mütəxəssislərin bildirdiyinə görə, qarğıdalı quraqlığa nisbətən dözümlü bitkidir. Bir sentner quru kütlə əmələ gətirmək üçün 20-30 ton su tələb edir ki, bu da vələmir və arpaya nisbətən azdır. Lakin yüksək məhsul almaq üçün o, daha çox su tələb edir. İnkişafın ilk mərhələsində hektara suyun orta sutkalıq sərfi 30-40 kubmetr, süpürgələmədən mum yetişməsinə qədər olan dövrdə isə 80-100 kubmetrə çatır. Ona görə də qarğıdalıdan 35-40 sentner dən məhsulu və ya 350-400 sentner yaşıl kütlə almaq üçün yay aylarında yağıntının miqdarı 260-300 millimetr olmalı, yaxud da suvarılmalıdır.

Qarğıdalı bərk, dişəbənzər, nişastalı, partlayan, şəkərli, nişastalı-şəkərli, yarımdiş, mumabənzər və pərdəli kimi botaniki qruplara bölünsə də, ölkəmizdə, əsasən, bərk qarğıdalı sortunun əkilməsinə üstünlük verilir. Bir kiloqram quru dəndə 1,34 yem vahidi və 78 qram həzm olunan protein vardır. Buna görə də onun dənindən qarışıq yem istehsalında da istifadə olunur. Bu bitkidən, eyni zamanda çox keyfiyyətli silos alınır. Bitkinin yaşıl gövdəsi heyvandarlıqda şirəli yem kimi çox faydalıdır.

Son illərdə muxtar respublikamızda da bu qiymətli bitkinin əkilməsinə maraq xeyli artıb. Bunun da bir çox səbəbləri var. Birinci ona görə ki, əvvəllər daxili bazarda müəyyən qədər boşluq var idi. Xüsusilə quşçuluq təsərrüfatlarının dən üçün yem istehsalında buna böyük ehtiyac duyulurdu. Çünki tərkibində proteinin faizi yüksək olduğuna görə yumurta istehsalı məqsədilə saxlanılan quşçuluq təsərrüfatlarında qarğıdalı dəni əvəzolunmaz yem sayılır. Buna görə də həm maldarlığın, həm də quşçuluğun ilbəil inkişaf etdirilməsi bu bitkiyə olan tələbatı durmadan artırırdı. Bundan başqa, muxtar respublikada digər kənd təsərrüfatı bitkiləri kimi, qarğıdalının da əkilib-becərilməsi üçün bu gün münbit şərait yaradılıb, bunun üçün müxtəlif texnikalar alınıb gətirilib. Yaradılmış şərait, heyvandarlıq və quşçuluq təsərrüfatlarının ildən-ilə genişlənməsi bu qiymətli bitkinin də əkilməsinə marağı artırıb. Statistik rəqəmlərə diqqət etsək, bunu daha aydın görə bilərik.

2009-cu ildə muxtar respublikamızda dən üçün əkilən bu bitkinin əkin sahəsi 723,6 hektara bərabər olub və sahələrdən 2865,4 ton məhsul yığılıb. 2012-ci ildə isə dən üçün qarğıdalı əkini sahəsi 845 hektara çatdırılaraq həmin sahələrdən 3382 ton məhsul tədarük edilib. Ötən il isə adıçəkilən məhsulun istehsalında xeyli artım müşahidə olunub. Belə ki, 2017-ci ildə muxtar respublikada 1667 hektar sahədə qarğıdalı əkini aparılıb, zəmilərdən 12 min 572,9 ton məhsul yığılıb. Bu da əvvəlki illə müqayisədə 20,2 faiz çoxdur. Məlumat üçün bildirək ki, 2017-ci ildə əvvəlki illə müqayisədə kartofçuluqda 5,5, meyvə istehsalında 2,1, tərəvəz istehsalında isə 1,9 faiz artıma nail olunub.

Bu rəqəmlər onun göstəricisidir ki, qarğıdalı əkini ötən il yerli torpaq mülkiyyətçiləri tərəfindən ən çox maraq göstərilən əkinçilik sahələrindən biri olub. Əvvəlki illərdə bu sahədə qazanılmış təcrübə, torpaq mülkiyyətçiləri üçün yeni imkanların yaradılması və ən əsası məhsulun daxili bazarda alıcısının olması bu sahədə qazanılmış nailiyyətlərin əsasını təşkil edir. Yeri düşmüşkən onu da qeyd edək ki, artıq Azərbaycanda prioritetləşdirilmiş sahə olan kənd təsərrüfatında ötən il iqtisadi gəlirliyi ilə seçilən beş sahədən birini də qarğıdalı istehsalı tutur.

✍ **Səbuhi HƏSƏNOV**

***Qış fəslində belə, bazar-dükanlarda yer alan göyərti məhsullarına tələbat çox olur. Sahibkarlar istixanalarda ərsəyə gətirdikləri məhsulları şəhər və rayon bazarlarına çıxarıb yaxşı qazanc əldə etməklə bərabər, əhalini istixana təsərrüfatında becərdikləri göyərti ilə bütün payız, qış mövsümü ərzində təmin edirlər. İstixanalarda müasir kənd təsərrüfatı texnikalarından istifadə, yeni texnologiyaların tətbiqi yüksək məhsuldarlığa nail olunmasında və əhalinin keyfiyyətli məhsullarla təminatında əhəmiyyətli rol oynayır.***

# Göyərti məhsullarına qış fəslində də tələbat çoxdur



"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində davamlı tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni istixana kompleksləri yaradılır.

Babək rayonu Naxçıvan bazarını istər yay, istər qış aylarında təzə göyərti məhsulları ilə təmin edən bölgələrdən biridir. Xüsusən də Babək qəsəbəsində göyərti əkib-becərməklə öz ruzilərini qazanan torpaq mülkiyyətçiləri kifayət qədərdir.

Bu günlərdə Babək qəsəbə sakini, təsərrüfat sahibi Rövşən Nağıyev bildirdi ki, faraş məhsulu dekabr ayından başlayaraq bazara çıxarır. İxtisasca müəllim olan Rövşən Nağıyev uzun illərdir ki, bu sahə ilə məşğuldur. Deyir ki, torpaq gün-güzəranı və dolanışığı təmin edən ən qiymətli sərvətdir. Biz də pay torpağımızda göyərti əkib-becərməklə məşğul oluruq. Ailə təsərrüfatımızla ruzimizi bu sahədən çıxarırıq. Bir hektar ərazidə göyərti əkmişik. Naxçıvan bazarında bu məhsulların yaxşı da alıcısı var. Təsərrüfatda çalışmaqla həm biz dolanırıq, həm də bir neçə ailənin məşğulluğunu təmin edirik.

Müsahibimin sözlərinə görə, göyərtiyə hər zaman tələbat var. Əsasən də qış aylarında. İstixanalar isə bu tələbatın ödənilməsində əsas rol oynayır. Bu işə, adətən, oktyabrın əvvəlindən başlanılır, noyabr ayının sonuna qədər istixanaların üzəri örtülür. Sahədə cəfəri, kəvər, keşniş, şüyüd, məzrə, nanə becəririk. Bunun sayəsində də qışın oğlan çağında belə, Naxçıvan bazarında istənilən göyərtini təzə-tər tapmaq mümkün olur.

"Sahibkarlar dövlətdən güzəştli şərtlərlə kredit əldə edərək öz təsərrüfatlarını genişləndirirlər", – deyən Rövşən Nağıyev onu da diqqətimizə çatdırdı ki, belə qayğı muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına hərtərəfli şərait yaradır, daxili bazarda yerli tərəvəz məhsullarının bolluğuna səbəb olur. Əvvəllər xaricdən gələn meyvə-tərəvəz, həmçinin göyərtilər bazarda üstünlük təşkil edirdi. İndi isə əksinədir. Bütün bunlar dövlətin sahibkarlığın, özəl sektorun inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlərin nəticəsidir.

Bəli, bu gün muxtar respublikamızın hər bölgəsində olduğu kimi, Babək rayonunda da iş adamlarına, fərdi təsərrüfatlara, əkin-biçinlə məşğul olanlara hərtərəfli şərait yaradılıb.

**Xəbərlər şöbəsi**



Elektron cəmiyyət

## Elektron kitabxanalar müasir dövrün tələbidir

***Son illərdə ölkəmizdə cəmiyyətin sənəd-informasiya tələbatının daha dolğun şəkildə ödənilməsi və bu işdə informasiya-kommunikasiya texnologiyalarından istifadə sahəsində bir sıra ciddi addımlar atılıb. Xüsusilə elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi kitabxanaların da fəaliyyətində yeni mərhələnin başlanmasına şərait yaradıb. Ənənəvi kitabxanalardan fərqli olaraq elektron kitabxanalar insanların informasiya əldə etməsi üçün zaman və məkan asılılığına son qoyur. Ənənəvi kitabxanalarda yalnız kitabxananın iş saatı müddətində və məhdud sayda oxuculara informasiya xidməti göstərildiyi halda, elektron kitabxanalar fasiləsiz fəaliyyət göstərir və dünyanın istənilən nöqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni zamanda xidmət edir.***

Elektron kitabxanalardakı vəziyyətlə yaxından tanış olmaq üçün muxtar respublikada fəaliyyət göstərən bir neçə kitabxanaya yollandıq. İlk üz tutduğumuz ünvan Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası oldu. Kitabxananın direktor müavini Rahilə Məmmədova ilə söhbət zamanı bildirdi ki, muxtar respublikamızda kitabxana işinin müasir standartlar səviyyəsində qurulması daim diqqət mərkəzində saxlanılır, kitabxanaların elektronlaşdırılması üçün məqsədyönlü addımlar atılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" 2012-ci il 19 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən Naxçıvan Muxtar Respublika Kitabxanasının bazasında yaradılan Elektron kitabxana da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada birinci dərəcəli dövlət əhəmiyyətli universal elmi kitabxana statusuna malik olan bu mədəniyyət ocağında elektron kitabxana sisteminin yaradılması və yeni internet saytının istifadəyə verilməsi kitabxana işinin günün tələbləri səviyyəsində qurulmasına imkan yaradır. Kitabxanada ən müasir surətçıxarma aparatı və 2 elektron köşk qurulub, elektron oxu zalında 12 kompüter quraşdırılıb, *www.e-kitab.nakhchivan.az* internet saytı istifadəyə verilib.

Kitabxananın direktor müavini onu da qeyd etdi ki, hazırda 170 min 660-a yaxın kitab fondu olan kitabxanada 9445 adda kitabın elektron kataloqu yaradılıb, 2072-yə yaxın kitab sayta yerləşdirilib. Rahilə Məmmədova dedi ki, görülən iş bununla yekunlaşmayıb. Kitabxananın biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi 200-ə yaxın biblioqrafik materialın, o cümlədən dövri mətbuat, jurnal və qəzetlərdə çapdan çıxmış əhəmiyyətli məqalələrin elektronlaşdırılmasını həyata keçirib.

Muxtar respublikada ən böyük kitab fonduna malik kitabxana Naxçıvan Dövlət Universitetinin kitabxanası hesab olunur. Kitabxananın direktoru Fariz Əhmədov bizimlə söhbətində bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı sayəsində 2013-cü ildə bu mədəniyyət müəssisəsinin binası təmir olunub və elektron kitabxana yaradılıb. Oxu zalı üçün 20, işçi yeri üçün 10 ədəd kompüter, bir server, bir elektron kitabxananın təşkili üçün böyük həcmli skaner, bir elektron kataloq köşkü, konfrans zalı üçün elektron lövhə və notebook alınıb. 2013-cü ildən bəri elektron kitabxana, PROLİB avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə başlayıb. Bura elektron kitabxananın təşkili, elektron kataloq və kitabların elektron versiyası və sair daxildir. Kitabxana fondunda 30-dan çox dildə 170 mindən çox ədəbiyyat saxlanılır ki, bu da muxtar respublikada Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının ən böyük kitabxana olduğunun göstəricisidir. Kitabxana 17 min oxucuya ümumi və ixtisaslaşdırılmış oxu zalları vasitəsilə xidmət göstərir. Burada bu günədək 5 min adda 40 min sayda kitabın elektron kataloqu yazılıb, 5 minə yaxın kitabın isə tammətnli elektron versiyası hazırlanaraq oxucuların istifadəsinə verilib. Kitabxanaya gələn hər bir oxucu əvvəl kitabların kataloqu ilə tanış olur və özünə lazım olan ədəbiyyatları bu kataloq vasitəsilə axtarıb tapır. Kataloqdan istifadə edərkən oxucular kitab fondunda olan kitablardan hansıların olub-olmamasından məlumatlı olur. Fasiləsiz mütaliə üçün elektron kitabxananın *lib.ndu.edu.az* saytı yaradılıb. Kitabxananın oxu zallarının və elektron oxu zallarının xidmətindən bütün oxucular istifadə edə bilər. Bəzi hallarda oxucu özünə lazım olan ədəbiyyatı kitabxanadan tapa bilmədikdə kitabxanalararası abonementdən istifadə edərək həmin kitaba olan oxucu tələbatını ödəyirik.





Elektron arxiv və elektron kitabxana sisteminin yaradılması istiqamətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində də bir sıra mühüm addımlar atılıb. Mərkəzin direktor müavini Emin Məmmədov bildirdi ki, 9 fevral 2013-cü il tarixdən fəaliyyətə başlayan Naxçıvanşünaslıq Mərkəzi yüksək səviyyəli elektron kitabxana ilə təmin olunaraq oxucuların istifadəsinə verilib. Mərkəzin elektron kitabxanası və arxivi ən müasir informasiya avadanlıq və daşıyıcıları ilə təmin olunub, elektron kitabxana və elektron arxiv zənginləşdirilib. Həmçinin mərkəzdə olan elektron köşk vasitəsilə oxucuların kitab fondunun elektron kataloqu ilə tanış olmaq, sorğulara operativ cavab almaq və virtual sifariş vermək imkanları da var. Dövri mətbuat və oxu zalında istifadəçilər üçün fonddakı kitablardan, qəzet və jurnallardan, eləcə də internetdən istifadə imkanı yaradılıb. Üç dildə hazırlanan *www.e-merkez.alimeclis.az* internet saytı Naxçıvanşünaslıq Mərkəzi ilə səmərəli informasiya mübadiləsi aparmağa imkan verir. Oxucular mərkəzə müraciət etdikləri zaman burada olan çap və arxiv materiallarını əyani olaraq əldə edə və ya onların elektron variantlarından *e-merkez@alimeclis.az* internet səhifəsinə daxil olmaqla istifadə edə bilərlər. Həmçinin mərkəzdə olan elektron məlumat köşkü vasitəsilə də axtarış aparmaq mümkündür.

Emin Məmmədov onu da qeyd etdi ki, mərkəzin Biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsində qəzet və jurnallardan ən mühüm yazı və məqalələr mövcuddur. Hazırda kitabxanada 3003 Azərbaycan, 358 xarici dildə olmaqla, 3361 nüsxə kitab, 860 qəzet və jurnal, 178 nüsxə avtoreferat və 72 nüsxə miniatür kitab var. Bundan əlavə, albom, xəritə, sənədli film və sair olmaqla, 745 arxiv materialı mərkəzin arxiv fondunda saxlanılır.

Muxtar respublikamızda dövlət qayğısı ilə əhatə olunan daha bir elektron kitabxana – Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Elektron kitabxanasıdır. AMEA Naxçıvan Bölməsinin Elektron kitabxanasının direktoru Sahab Əliyevadan öyrəndik ki, kitabxananın fondunda 15 min adda 33 min nüsxədən artıq kitab mövcuddur. Burada elektron kitabxananın işinin səmərəli qurulması üçün lazımi şərait yaradılıb, indiyə qədər 1149 adda kitabın elektron versiyası hazırlanıb, onlardan 899-u internetdə, 250-si isə kitabxanadaxili şəbəkədə yerləşdirilib. Bundan əlavə, kitabxanada dissertasiya və avtoreferatların elektron kataloqlaşdırılması işləri aparılır. Bu məqsədlə bu günə qədər 7226 avtoreferat və 89 dissertasiya kitabxana oxucularının istifadəsinə verilib. 16004 qəzet və jurnal məqaləsinin elektron kartotekası hazırlanıb.

Sahab Əliyeva onu da dedi ki, elektron kitabxanada 12 terabayt yaddaşı olan əsas və ehtiyat server quraşdırılıb, elektron oxu zalı üçün 6 oxucu yeri yaradılıb. Kitabxana lazımi avadanlıqlarla təmin edilib, burada surətçıxarma aparatı, printer, elektron daşıyıcılarda olan məlumatların vizual və səsli izlənməsi üçün televizor və mobil elektron lövhə qoyulub. Kitabxanaya fiber-optik kabel çəkilib, daxili şəbəkə yaradılıb və *www.e-kitab.ameanb.nmr.az* internet səhifəsi hazırlanıb.

Qeyd edək ki, muxtar respublikamızda təkcə adi təyinatlı kitabxanaların deyil, xüsusi təyinatlı elektron kitabxanaların da yaradılması diqqət mərkəzindədir. Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidmətinin yaradılması elektron resurslardan bu kateqoriyadan olan vətəndaşlarımızın da sərbəst istifadəsinə şərait yaradıb. Hazırda mərkəzin serverində 1326 audiokitab, 773 elektron kitab vardır. Mərkəzdə fəaliyyət göstərən səsyazma studiyasında işə cəlb edilmiş, məhdud fiziki imkanlı şəxslərin fərdi qabiliyyətlərindən istifadə olunaraq yeni audiomateriallar hazırlanıb serverdə yerləşdirilir.

Müasir dövrdə elektron kitabxanalar vaxta qənaət etməklə insanlarda oxu vərdişlərinin yaranmasına böyük təsir göstərən informasiya mənbəyidir. Son illərdə muxtar respublikamızda bu sahədə atılan addımlar elektron kitabxanaların daha səmərəli fəaliyyət göstərmələrinə imkan yaradıb. Nəticədə, yuxarıda adıçəkilən elektron kitabxanaların hər biri özünə müəyyən oxucu kütləsi qazanıb. İnanırıq ki, bu kitabxanaların davamlı olaraq zənginləşdirilməsi həmin ünvanlara edilən elektron müraciətlərin də sayını artıracaqdır.

**Gülcamal TAHİROVA**

---

***Hər bir ölkənin inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi birbaşa gələcəyin etibarlı təminatı olan kadr hazırlığından asılıdır. Məhz buna görə də bu gün ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda gənc kadrların hazırlanmasına, onların işlə təmin olunmasına, potensiallarından səmərəli istifadəyə xüsusi diqqət yetirilir.***

Gənclər Paytaxtının gəncləri

## Müəllimlik şərəfli peşədir



Ulu öndər Heydər Əliyev də həmişə gənc nəslə böyük ümidlər bəsləyib, onlarla görüşlərində, mötəbər tədbirlərdəki çıxışlarında Azərbaycanın gələcəyi olan gənclərin hərtərəfli yetişdirilməsi üçün təhsilin ən vacib və zəruri məsələlər sırasında olduğunu vurğulayırdı. Bu vacib məsələnin həllində təhsil ocaqlarının və müəllimlərin üzərinə böyük vəzifələr düşür. Yaxşı haldır ki, belə müəllimlər içərisində gənclər də çoxluq təşkil edir. Onlar şagirdlərin dərin və hərtərəfli təhsil almaları, yaşadıqları dövrün problemlərindən çıxış yolu tapmaları üçün öz bilik və bacarıqlarını əsirgəmirlər.

Belə müəllimlərdən biri də Naxçıvan şəhərindəki Afiyəddin Cəlilov adına 12 nömrəli tam orta məktəbin dərs hissə müdiri Günel Əliyevadır.

Günel Əliyeva 1989-cu ildə Naxçıvan şəhərində dünyaya göz açıb. O, orta məktəbdə təhsil aldığı müddətdə şagirdlər arasında seçilib, keçirilən fənn olimpiadalarında, viktorinalarda, digər bilik yarışmalarında iştirak edərək yaxşı nəticələr qazanıb.

2008-ci ildə Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin İbtidai təhsilin pedaqogikası və metodikası ixtisasına qəbul olan və ali təhsilini uğurla başa çatdıran Günel Əliyeva ilk pedaqoji fəaliyyətə Məhəmməd Tağı Sidqi adına Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə başlayır. Bir müddət sonra fəaliyyətini Afiyəddin Cəlilov adına Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbdə davam etdirir. Qısa zamanda işə bağlılığı və bacarığı nəzərə alınaraq o, həmin məktəbin dərs hissə müdiri təyin edilir. Onunla söhbətimizdən:

– Müəllimlik olduqca şərəfli peşədir. Cəmiyyətdə müəllimlərə həmişə böyük hörmət olub. Ulu öndər Heydər Əliyev müəllim adını uca tutur, müəllimliyi bütün peşələrdən ən şərəflisi hesab edirdi. Ümummilli liderimiz deyirdi: ***"Həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli, dözümlü olubdur və mənəviyyatını hər şeydən yüksək tutubdur".***

Mən hər zaman əldə etdiyim bilikləri şagirdlərə öyrətmək arzusunda olmuşam. Artıq bu arzuma çatmışam. Müəllim öz peşəsini sevməlidir. Əks halda, o, istədiyi nəticəni ala bilməyəcək. Pedaqoji fəaliyyət göstərdiyim illərin təcrübəsindən mənə aydın olub ki, müəllimlik olduqca çətin peşədir. Şagird olduğumuz illərdə, yaxud da tələbəlikdə bunun fərqində olmuruq. "Müəllim" sözünün arxasındakı məsuliyyəti, çətinliyi yalnız böyüdükdən, yaxud da özümüz müəllim kimi işlədikdən sonra anlayırıq.

Müəllim şagirdlərin dostu, sirdaşıdır, həmçinin onların elmin çətin və mürəkkəb yollarında düzgün addım atmasında bələdçidir. Müəllimin qazancı şagirdlərinin uğurlarıdır. Şagirdin uğuru müəllimin onun üzərində olan bütün əziyyətlərini unutdurur. Sevinirəm ki, bu gün öz ölkəmə, xalqıma müəllim kimi layiqincə xidmət edirəm. ***"Mən dünyada müəllimdən yüksək ad tanımıram"***, – deyən ulu öndərimiz Heydər Əliyev biz müəllimlər qarşısında böyük bir vəzifə qoyub. Bu gün dövlətimiz bu peşə sahiblərinə böyük qayğı və diqqət göstərir, onların əməkhaqları ilbəil artır, qabaqcıl müəllimlərə Prezident təqaüdü verilir. Müəllimlərimizin bir çoxu son illər "Əməkdar müəllim" fəxri adına layiq görülüb, "Tərəqqi" medalı ilə təltif olunublar. Bu sırada gənclərimizin də olması qürurvericidir. Biz gənc müəllimlərə göstərilən qayğı muxtar respublikada dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsinin ifadəsidir. Sirr deyil ki, bu gün Naxçıvan gəncliyi öz inkişafının yeni mərhələsindədir. Bütün bunlar isə bizi həm bir təhsil işçisi, həm də bu ölkənin vətəndaşı olaraq çox sevindirir.

Günel müəllimə deyir ki, bu gün də ulu öndərin təhsilə, müəllimə qayğıkeş münasibəti dövlətimizin siyasətində önəmli yer tutur və gənc müəllimlərimiz də bu qayğıdan bəhrələnirlər. Onlar təhsilin keyfiyyətini yüksəltmək, gələcəyin sağlamdüşüncəli qurucularını yetişdirmək üçün səylə çalışırlar. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Müəllimlər yeni cəmiyyət quruculuğunun ən fəal iştirakçılarıdır. Hər birimizin layiqli vətəndaş kimi yetişməyində müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur. Müəllimlik elə bir şərəfli peşədir ki, ondan bütün cəmiyyət bəhrələnir. Ona görə də hər bir müəllim öz çiyinlərində bu ağır yükü daşımağı bacarmalıdır. Naxçıvan şəhərinin 2018-ci il Gənclər Paytaxtı elan edilməsi biz gənc müəllimlərin məsuliyyət hissini daha da yüksəldib. Çalışacağam ki, 2018-ci il mənim üçün də daha uğurlu illərdən biri olsun.

**Fatma BABAYEVA**

## Muxtar respublikada əhalinin tibbi müayinəsinə start verilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə fevralın 12-dən başlayaraq Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələrində əhalinin tibbi müayinələrinə start verilib. Tədbir may ayının 12-dək davam etdiriləcək. Ölkə başçısının tapşırığının icrası məqsədilə muxtar respublikamızda da bir sıra işlər görülür.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən artıq dördüncü ildir ki, əhali arasında patoloji halların, müxtəlif xəstəliklərin risk faktorlarının erkən aşkarlanması məqsədi daşıyan profilaktik tibbi müayinələr keçirilir.

Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası və rayon mərkəzi xəstəxanaları tərəfindən icra olunan tibbi müayinələr zamanı həkimlər tərəfindən profilaktik baxış keçirilir, sağlamlığa dair məlumatlar və xəstəliklərə səbəb olan risk faktorları ilə bağlı tövsiyələr verilir. Fevralın 12-dən indiyədək Naxçıvan Şəhər Poliklinikasında 160 nəfər tibbi müayinələrdən keçirilib. Onlar kardioloji, stomatoloji, terapevtik, ginekoloji, USM və digər tibbi xidmətlərlə əhatə olunublar.

Xəstəliklər aşkar olunduğu halda pasiyentlər yerlərdə, zərurət yarandığı halda isə Naxçıvan şəhərində fəaliyyət göstərən ixtisaslaşdırılmış tibb müəssisələrində əlavə müayinə və müalicəyə cəlb olunacaqlar. Vətəndaşlar yaşayış yeri üzrə tibb müəssisəsinə vaxtında müraciət edərək profilaktik tibbi müayinədən keçə bilərlər.

Qeyd edək ki, muxtar respublikamızda əhalinin profilaktik müayinələri ilboyu davam etdirilir.

*Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tibb işçilərinin maarifləndirilməsi məqsədilə tədbir keçirib.*

## Tibb işçilərinin maarifləndirilməsi məqsədilə tədbir keçirilib



Muxtar respublikanın səhiyyə nazirinin müavini Samrat Gəncəyeva Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il may ayının 3-də “Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” imzaladığı Fərmanın icrası ilə bağlı Səhiyyə Nazirliyi tərəfindən görülən işlərdən danışıb.

Qeyd olunub ki, ötən müddətdə icbari tibbi sığortada iştirak edən səhiyyə müəssisələrinin həyata keçirdiyi xidmətlərin baza zərfi hazırlanaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Sığorta Agentliyinə təqdim olunub. Baza zərfində həm də ayrı-ayrı xəstəxanalarda olan tibbi xidmətlərin siyahısı öz əksini tapıb. İcbari tibbi sığortada iştirak edən səhiyyə müəssisələrində çalışan tibbi heyət barədə məlumat sığorta agentliyinə təqdim olunub. Səhiyyə sahəsində mövcud dövlət proqramı ilə əhatə edilmiş vətəndaşlar barəsində dəqiq məlumatlar elektron qaydada hazırlanıb.

Vurğulanıb ki, tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə hazırda Sədərək Rayon Mərkəzi Xəstəxanasına ixtisaslı kadrların yönləndirilməsi diqqət mərkəzində saxlanılır. Vətəndaşların müraciəti zamanı çətinliklərin olmaması üçün adıçəkilən səhiyyə ocağının qəbul şöbəsində xəstələrin qəbulu üçün işçilər təyin edilib və qeydiyyat elektron qaydada həyata keçirilərək mərkəzləşdirilmiş bazaya göndərilib. Əhaliyə göstərilən tibbi xidmətin daha da yaxşılaşdırılması məqsədilə tibbi sığortanın tətbiq olunması prinsipləri barədə həm vətəndaşlar, həm də tibb işçiləri arasında maarifləndirici tədbirlərin aparılması nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov bildirib ki, fərmana uyğun olaraq icbari tibbi sığortanın tətbiqi muxtar respublikada səhiyyə sahəsində dayanıqlı maliyyə mənbələrinin formalaşdırılmasına, mövcud resursların daha səmərəli istifadə olunmasına müsbət təsir göstərəcək. Ali Məclis Sədrinin 2017-ci il 3 may tarixli Fərmanına əsasən Sədərək rayonunda rəsmi qeydiyyatda olan şəxslər icbari tibbi sığortanın baza zərfindən pulsuz istifadə edə bilərlər. Yəni Sədərək Rayon Mərkəzi Xəstəxanası ödənişli əsaslarla fəaliyyət göstərsə də, icbari tibbi sığorta şəhadətnaməsi alan rayon sakinləri xəstəxananın imkanlarından pulsuz yararlanacaqlar.

Diqqətə çatdırılıb ki, rayonda icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar baza zərfi çərçivəsində tibbi xidmət göstərəcək həkim, orta və kiçik tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların əməkhaqları 50 faiz artırılıb.

Tədbirdə agentliyin əməkdaşı Leyli Həsənova “Müasir müayinə və müalicə protokolları” mövzusunda çıxış edib.

Sonda suallar cavablandırılıb, həkim və tibb işçilərinə sertifikatlar verilib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Tamaşaya ictimai baxış

***Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında məşhur “1001 gecə nağılları”ndan olan “Ələddinin sehrli çırağı” tamaşasına ictimai baxış olub.***

Teatrın bədii rəhbəri-direktoru, Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbovun səhnələşdirdiyi nağıl real və fantastik elementlərlə zəngindir. Ələddinin maraqlı macəra və sərgüzəştləri tamaşanı baxımlı edir. Tamaşa-nağılın əsas mövzusu insanın çətinliklərə qalib gələrək öz xoşbəxtliyinə, səadətinə qovuşmasıdır. Ələddinin sehrli çırağı tapması, sonra isə onun cadugər tərəfindən ələ keçirilməsi, sehrli qüvvələrlə rastlaşması tamaşada maraqlı səhnələrdəndir. Bütün çətinlikləri dəf edən Ələddin (aktyor Arzu Səfərov) tamaşanın sonunda xoşbəxtliyə çatır.

Tamaşadakı Ələddinin anası (aktrisa Ulduz Süleymanova), Cadugər (aktyor İlqar Babayev), Cin (aktyor İlham Babayev), Div (aktyor İbad Nəbiyev) və başqaları nağıl qəhrəmanlarını dolğun canlandırırlar.

Tamaşanın quruluşçu rəssamı Rəfael Qədimov, musiqi tərtibatçısı Əli Məmmədovdur.

Sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova, xalq artistləri Kamran Quliyev, Şirzad Abutalıbov və başqaları çıxış edərək tamaşa haqqında fikir və rəylərini bildiriblər.

Yaxın həftələrdə “Ələddinin sehrli çırağı” tamaşasının balacalara göstərilməsi nəzərdə tutulub.

**Əli RZAYEV**

## “Kitabi-Dədə Qorqud” dastanının müzakirəsi olub

Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbdə şagirdlərin iştirakı ilə “Kitabi-Dədə Qorqud” dastanı müzakirə edilib. Naxçıvan Şəhər Təhsil Şöbəsi və Adil Babayev adına Uşaq Kitabxanasının birgə keçirdiyi tədbiri giriş sözü ilə məktəbin direktoru Ülkər Məmmədova açaraq bildirib ki, muxtar respublikamızda gənc nəslin dünyagörüşünü düzgün formalaşdırmaq, vətənpərvər ruhda yetişdirmək istiqamətində görülən işlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Oxunması zəruri olan kitablar haqqında” 2017-ci il 28 avqust tarixli Sərəncamının əhəmiyyəti böyükdür.

Adil Babayev adına Uşaq Kitabxanasının əməkdaşı Məsmə Cəfərova şagirdlərin diqqətinə çatdırıb ki, “Kitabi-Dədə Qorqud” dastanı qəhrəmanlıq, igidlik, mərdlik, cəsurluq, dostluq, birlik dastanıdır. Dastanda böyüməkdə olan nəslə Vətənə məhəbbət hissini aşılamaq, onlara Vətəni tanıtmaq və sevdirmək üçün geniş məlumatlar verilir. Bu baxımdan dastan həm də bugünkü gənc nəslin tərbiyəsində mühüm rol oynayan böyük tarixi abidə hesab olunur.

Sonra şagirdlər “Dədə Qorqud” bədii filminə baxıb, oxunması zəruri olan kitablardan ibarət sərgi ilə tanış olublar.

✍ **Nail ƏSGƏROV**


### İtmişdir

Məmmədov Əfqan Seyran oğlunun adına olan MH-0015882 nömrəli dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Cəhri kənd sakini Məmmədov Mahir İslam oğlunun adına olan JN-340A inventar nömrəli, 10311068 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


***İnsanın yaşayış keyfiyyətini müəyyən edən əsas göstəricilərdən biri sosial həyatın, asudə vaxtın səmərəli keçirilməsidir. Bu mənada, həm naxçıvanlılar, həm də muxtar respublikamıza gəlmiş qonaqlar şəhərimizdəki müasir və dəbdəbəli restoran və digər iaşə müəssisələrinin xidmətlərindən tez-tez istifadə edir, istirahətlərini yaxşı keçirməyə çalışırlar. Naxçıvan şəhərinin tarixiliklə müasirliyin qovuşduğu bir məkanında yerləşən “Nuh yurdu” restoranı da fəaliyyətə başladığı dövrdən belə ünvan kimi tanınmağa başlayıb.***

*Xidmət sektorlarımız*

## Mədəni istirahətin məkanı

## “Nuh yurdu” restoranı





Muxtar respublikamızda əhalinin həyat səviyyəsinin yüksəlməsi insanları daha çox keyfiyyətli xidmətlər almağa sövq edir. Artıq əvvəlki dövrlərdən fərqli olaraq həyatımızın bütün sahələrində baş verən keyfiyyət dəyişiklikləri sosial-mədəni sahədə də açıq görünməkdədir. Elə “Nuh yurdu” restoranında da bunun bir daha şahidi olduq. Havanın gözəl olmasını fürsət bilən müştərilər restorana axın edirdi.

“Nuh yurdu” restoranı Naxçıvan şəhərinin Atabəylər məhəlləsində yerləşir. Tarixi Naxçıvanqalanın yaxınlığında, gözəl Araz mənzərəli, səs-küydən uzaq, yaşıllıqlar arasındakı bu ailəvi istirahət məkanına təşrif buyuran müştərilər üçün hər cür rahatlıq yaradılıb. Şübhəsiz, insan həyatı üçün nə qədər fiziki və estetik komfortluluq, erqonomik rahatlıq yaradılıbsa, bu, son nəticədə, daha məzmunlu mədəni istirahət və yaradıcı fəaliyyət deməkdir. Ona görə də insanlara nə qədər gözəl xidmətlər göstərilsə, onları nə qədər razı sala bilsək, bu, təkcə bizim işimizin uğuru deyil, həm də müştərilərimizin də razı qalması deməkdir. Muxtar respublikamıza gələn turistlərin sayının artdığı bir dövrdə bu, xüsusilə vacibdir. Müəssisənin rəhbəri Ceyhun Seyidovla söhbətimizdən də bir daha bu qənaətə gəldik.

“Nuh yurdu” restoranı 2015-ci ilin yayında fəaliyyətə başlayıb. Keçən müddət ərzində müəssisənin xidmətlərindən istifadə edənlərin sayı daha da artıb. Ümumi tutumu qışda 500, yay aylarında isə 650 nəfərdən çox olan restoranda müştərilərə keyfiyyətli xidmətlər göstərilməsi üçün hər cür təminat vardır. Restorana gəlmiş müştərilər istəklərinə görə Nuh Peyğəmbərin gəmisini xatırladan 70 nəfərlik gəmi maketli kafedə və ya 48 yerlik ailəvi oturma səbətlərində, yaxud da 100 və 130 nəfərlik banket zallarında yer seçib əyləşə bilərlər. Bunlardan əlavə, restoran ərazisindəki göldə yaradılmış 10 nəfərlik üzən qayıqlarda, 36 nəfərlik mağarada və qonaqlar üçün nəzərdə tutulmuş VİP məkanda nahar və ya şam edənlər buradakı xidmətləri uzun müddət xatırlayırlar. Gülərüz personalın göstərdiyi səlis və operativ xidmətlə yanaşı, buraya gəlmiş qonaqlar üçün qeyri-adi tərtibat, habelə həzin musiqi, sürətli internetə qoşulma imkanları, qışın soyuğunda istilik və yayın istisində sərinlik də təmin olunub. Xeyli sayda işçinin çalışdığı restoranda qonaqları qarşılayıb yola salan qarsonların və digər xidməti personalın peşəkarlığına, əcnəbi dil bilməsinə xüsusi fikir verilir, onların əməkhaqqının yüksək olması diqqətdə saxlanılır, işçilərə nəqliyyat xidmətləri göstərilir.

Hər bir restoran müəssisəsinin fəaliyyətində hazırlanan və müştərilərə təqdim olunan yemək çeşidləri həmişə maraq kəsb edir. “Nuh yurdu” restoranı da bu baxımdan öz müştərilərinə geniş çeşid təklif edir. Xalqımızın milli mətbəxində, xüsusən Naxçıvana xas olan yeməklərin ustalıqla hazırlanıb yüksək zövqlə masalara təqdim olunması üçün hər kiçik detala diqqət edilir, keyfiyyət tələbinə ciddi yanaşılır. Menyudakı ənənəvi kabablarla yanaşı, sac, qazan, tava yeməklərini, restoranın ərazisindəki göldən tutulmuş təzə balığı elə buradakı təndirdə bişirilmiş təzə Naxçıvan lavaşı ilə dadan müştərilər “Nuh yurdu”na bir daha gəlmək istəyirlər. Restorana məxsus “Nuh yurdu spesial” yeməyi, kətələr, yerli tərəvəz məhsullarından hazırlanmış salatlar və təbii üsulla bəslənmiş quş ətindən çəkilən kabablar və şübhəsiz, Naxçıvana məxsus ağartı çeşidləri qonaqların ən çox sifariş verdiyi yeməklərdəndir. Sifariş demişkən, “Nuh yurdu” restoranı evində qonaqları üçün təamlı süfrə açan naxçıvanlıları da unutmur. Qəbul edilmiş sifarişlər sürətli servislər vasitəsilə qısa zamanda şəhərin istənilən ünvanına çatdırılır.

İstənilən xidmət müəssisəsi, o cümlədən restoran üçün zəruri infrastrukturun yaradılması işin keyfiyyətini müəyyən edən əsas amillərdəndir. “Nuh yurdu” restoranında bu cəhətə də xüsusi diqqət yetirilir. Restorana gəlmiş qonaqların avtomobilləri üçün nəzərdə tutulmuş ümumi tutumu 70-80 avtomobil olan 2 dayanacaq yeri, bütün restoran ərazisinin işıqlandırılması, fasiləsiz elektrik enerjisi, ibadət otağı və digər təmizlik şəraiti ən tələbkar müştərilərə də lazımi xidmətlər göstərilməsi üçün yaradılıb. Şübhəsiz, təkcə ölkəmizin deyil, dünyanın ən təmiz, gözəl şəhərlərindən biri olan Naxçıvanda fəaliyyət göstərən istənilən sosial-mədəni xidmət müəssisəsi üçün bütün bunlar vacib şərtlərdəndir. Bu mənada, İslam Mədəniyyəti Paytaxtı kimi bu il Naxçıvana təşrif buyuracaq çoxsaylı əcnəbi turistlərin qarşılanması üçün “Nuh yurdu” restoranında da ciddi hazırlıq işləri aparılır. Müştərilərlə əlaqələrin qurulması, korporativ müştərilərə, o cümlədən tələbələrə xüsusi qiymətlərlə xidmət göstərilməsi, reklamın genişləndirilməsi, sosial şəbəkələrdə paylaşımlar edilməsi, habelə müştərilərin istəyinə görə onlara peşəkar foto servisinin də göstərilməsi diqqətdə saxlanılır. Bütün bunlar “Nuh yurdu” restoranında mənalı saatlar keçirib, ailəsi və dostları ilə istirahət etmək istəyən naxçıvanlıların və turistlərin rahatlığı üçün yaradılıb. Məqsəd isə adı Nuh Peyğəmbərlə bağlı, sivilizasiyanın, şəhər mədəniyyətinin beşiyi olan Naxçıvanın zəngin süfrə ənənələrinin, qonaqpərvərlik elementlərinin qonaqlara daha yaxşı tanıtmaq, insanlara keyfiyyətli xidmət göstərib onlara xoş ovqat bəxş etməkdir.

✍ **Əli CABBAROV**


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Muxtar Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 141**